# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI (1969-1982-ci İLLƏR)

**Rəşid Mehdiyev**
*Bakı Dövlət Universiteti Azərbaycan tarixi (humanitar fakültələr) kafedrasının doktorantı*
*mresid.1998@gmail.com*

## AYDER ALIYEV AND THE DEVELOPMENT OF THE AZERBAIJAN LANGUAGE (1969-1982 YEARS)

**Rashad Mehdiyev**

**Summary**

Language policy occupies a very important place in the large-scale political-ideological activity of national leader Heydar Aliyev. Heydar Aliyev's language building policy formed a whole system as a part of his national state building policy. Heydar Aliyev treated the Azerbaijani language not only as an ordinary means of communication, but as a national treasure of a nation with an ancient history, rich culture, and social and cultural position in the modern world. After coming to power in 1969, national leader Heydar Aliyev left his eternal signature in history as the savior of our national language. The active and consistent language policy implemented by Great Leader Heydar Aliyev in the 70s and 80s of the last century raised the spirit of national self-return, national self-awareness and national freedom in Azerbaijan. Heydar Aliyev's speech in his mother tongue at the 50th anniversary event of Azerbaijan State University (BSU) was received with great sympathy by our intellectuals and gave them moral support.

**Keywords:** Heydar Aliyev, national and moral values, Azerbaijani language, Constitution of the Republic of Azerbaijan, national ideology

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI (1969-1982-ci İLLƏR)

**Rəşid Mehdiyev**

**Xülasə**

Ümummilli lider Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tutur. Heydər Əliyevin dil quruculuğu siyasəti onun milli dövlət quruculuğu siyasətinin tərkib hissəsi olaraq bütöv bir sistem təşkil etmişdir. Heydər Əliyev Azərbaycan dilinə yalnız adi ünsiyyət vasitəsi kimi deyil, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada ictimai-mədəni mövqeyi olan bir xalqın milli sərvəti kimi yanaşırdı. Heydər Əliyevin Azərbaycan Dövlət Universitetinin (BDU) 50 illik yubiley tədbirində doğma ana dilində çıxış etməsi ziyalılarımız tərəfindən böyük rəğbət ilə qarşılanmış, həm də onlara mənəvi dəstək vermişdi. Heydər Əliyev bütün fəaliyyəti dövründə həmişə Azərbaycan xalqının dilinin, mənliyinin, milli şüurunun, milli mentalitetinin qorunması və inkişaf etdirilməsi keşiyində durmuş və bu sahədə çalışanların əməyini yüksək qiymətləndirmişdi.

**Açar sözlər:** Heydər Əliyev, milli-mənəvi dəyərlər, Azərbaycan dili, Azərbaycan Respublikasının Konstitusiyası, milli ideologiya

## ГЕЙДАР АЛИЕВ И РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА (1969-1982 ГОДЫ)

**Рашид Мехтиев**

**Аннотация**

Языковая политика занимает очень важное место в масштабной политико-идеологической деятельности общенационального лидера Гейдара Алиева. Политика Гейдара Алиева в области языкового строительства сформировала целую систему как часть его политики национального государственного строительства. Гейдар Алиев относился к азербайджанскому языку не только как к обычному

средству общения, но и как к национальному достоянию народа с древней историей, богатой культурой, социально-культурным положением в современном мире. Придя к власти в 1969 году, общенациональный лидер Гейдар Алиев оставил вечный след в истории как спаситель нашего национального языка. Активная и последовательная языковая политика, проводимая Великим лидером Гейдаром Алиевым в 70-е и 80-е годы прошлого века, подняла в Азербайджане дух национального самовозвращения, национального самосознания и национальной свободы. Выступление Гейдара Алиева на его родном языке на мероприятии, посвященном 50-летию Азербайджанского государственного университета (БГУ), было встречено нашей интеллигенцией с большим сочувствием и оказало ей моральную поддержку.

**Ключевые слова:** Гейдар Алиев, национально-нравственные ценности, азербайджанский язык, Конституция Азербайджанской Республики, национальная идеология.

**Giriş.** Ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin mənimsənilməsində milli dilimizin roluna müstəsna əhəmiyyət verirdi. Heydər Əliyev üçün milli-mənəvi dəyərlərimizə yiyələnməkdə gənc nəslin milli, vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsi əsas vəzifələrdən biri idi. O, bu məsələdən bəhs edərkən bildirirdi ki, “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz” [2, s.296]. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə milli-mənəvi dəyərlərimizin kökündə dayanan milli dilin qorunmasına, onun inkişafına böyük diqqət yetirilmişdir. Respublikanın təhsil müəssisələrində oxuyan şagird və tələbələrin 70%-dən çoxu Azərbaycan dilində təhsil alırdı [11, s.612]. Milli dilin, mədəniyyətin, milli-mənəvi dəyərlərin itib-batmaq səviyyəsinə çatdığı bir dövrdə bunları xilas etmək üçün Azərbaycan dili haqqında qanunun qəbul edilməsi çox böyük cəsarət tələb edən bir addım idi. Heydər Əliyev bütün fəaliyyəti dövründə həmişə Azərbaycan xalqının dilinin, mənliyinin, milli şüurunun, milli mentalitetinin qorunması və inkişaf etdirilməsinin keşiyində durmuşdur. Heydər Əliyev bütün rəsmi yığıncaqlarda, tədbirlərdə rəhbər şəxslərin rus dilində çıxış etməsinin ənənəyə çevrildiyi bir vaxtda - 1969-cu ilin noyabrında Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə keçirilən yığıncaqda öz ana dilində, Azərbaycan dilində çıxış etməsi ilə respublikaya səs saldı. Bu münasibətlə onu təbrik edənlərə öz minnətdarlığını bildirərək deyirdi «burada qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu mənim ana dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq deyildir. Ana dilini bilməmək, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir» [4, s.56].

1977-ci il oktyabr ayının 7-də SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Heydər Əliyevin rəhbərliyi ilə Konstitusiya Komissiyası Azərbaycan SSR- nin yeni konstitusiya layihəsini hazırlayır. 1978-ci il aprel ayının 21-də Azərbaycan SSR Ali Sovetinin doqquzuncu çağırış, növbədənkənar VII sessiyasında Heydər Əliyev «Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) layihəsi və onun ümumxalq müzakirəsinin yekunları haqqında» məruzə edir. Bu konstitusiya SSRİ-nin yeni Konstitusiyası əsasında hazırlansa da, orada respublikanın milli, iqtisadi, siyasi və tarixi xüsusiyyətləri də nəzərə alınmışdı. Ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri vardır. O, qeyd edirdi ki, «Öz dilini inkişaf etdirən alim, müəllim, öz tarixini yazan, tarixini əks etdirən, öz mənəviyyatını araşdıran, təhlil edən və ümumiləşdirən, xalqına yüksək səviyyədə çatdıran alim - onlar hamısı birlikdə öz xalqının, millətinin, milli şüurunun, milli ruhunun, vətənpərvərlik ruhunun inkişaf etməsinə, irəli getməsinə xidmət göstərir» [4, s.55]. Heydər Əliyev 1995-ci il oktyabrın 31-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında bildirmişdi: «Ancaq bu maddə (73-cü maddə) Moskvada çox böyük etiraza səbəb olmuşdu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz konstitusiyamıza yazmalıyıq və yazacağıq» [6, s.60]

Bu siyasət müstəqillik dövründə də uğurla həyata keçirilmişdir. Belə ki, 1995-ci il noyabr ayının 12-də ümumxalq refendumu əsasında müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu və 21-ci maddədə təsbit olundu ki, “Azərbaycan Respublikasının dövlət dili

Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir”. Azərbaycan dilinin təkcə azərbaycanlılara deyil, Azərbaycanın ərazisində yaşayan bütün xalqlara eyni dərəcədə, sədaqətlə xidmət etməsi milli-mənəvi irsimizin qorunması və inkişafı baxımından mühüm bir mərhələdir. 1995-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dilinin milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edilməsi ölkəmizdə ana dilinin hərtərəfli inkişafında, onun saflığının qorunmasında, işlək dilə çevrilməsində və beynəlxalq münasibətlər sisteminə yol tapmasında mühüm rol oynadı. 2001-ci il iyunun 18-də imzalanan “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Fərman da Azərbaycan dilinin siyasi hüquqi statusunun möhkəmləndirilməsi istiqamətində atılan addımlardan biri idi. Fərmanda dilimizin tarixi ilə bağlı bir sıra həssas məqamlara aydınlıq gətirilirərək, onun keçdiyi inkişaf yolları və mərhələləri təhlil olunur. Müstəqil dövlətimizin rəsmi dili olan Azərbaycan dilinin ölkədə geniş miqyasda tətbiq edilməsi və hərtərəfli inkişafı üçün əlverişli şərait yaradılması və bu məqsədlə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi bir vəzifə olaraq müəyyənləşdirilir. 2001-ci il 9 avqust tarixli “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” Fərman Azərbaycan dilinə, onun inkişafına olan dövlət qayğısının ən bariz nümunəsidir. Ümumiyyətlə, Azərbaycan Respublikasında dil siyasətinin möhkəm əsaslar üzərində formalaşdırılması, Azərbaycan dilinin dövlət dili olaraq tətbiqinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması, Heydər Əliyevin adı ilə bağlıdır.

**İstifadə olunmuş əddəbiyyat siyahısı:**

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.
2. Abdullazadə F., Ələsgərov, F., Əlirzayev, Ə., Əliyev, Ş., və başqaları, Azərbaycan Respublikası 1991-2001. XXI – Yeni Nəşrlər Evi, Bakı 2001,
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. IV kitab, B., Azərnəşr, 1997, 528 səh.(səh.426.)
4. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı, 1997 s.55
5. Heydər Əliyev. Mədəni irsimizin keşiyində, I kitab, Heydər Əliyev Fondu, Bakı 2001.
6. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu.Bakı, «Təhsil», 2004, 472 səh.
7. Müstəqil dövlətimiz və parlamentimiz. Azərbaycan Respublikası Milli Məclisinin nəşri. Tərtibçilər: A.Babayev, H.Babayev, Bakı, 2001, səh.255. 347 səh.
8. Tədqiqatlar və mənbələr Azərbaycan Respublikasının tarixi (2003-2016). Azərbaycan Tarixçiləri İctimai Birliyi, Bakı 2016.
9. Zeynalov, İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında, Azərnəşr, Bakı 2004.
10. Zeynalov, İ.X. Totalitar sovet cəmiyyəti: Tarixin ibrət dərsləri, "Ləman nəşriyyatı poliqrafiyası" MMC, Bakı 2017.
11. Zeynalov, İ. Azərbaycanın Milli-Mənəvi Dəyərləri İntibah Dövründə (1969-1982-ci illər), Akademik Tarih ve Düşünce Dergisi, C.9, S.3, 2022, s.606-625.